**Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin 2013-cü ildə fəaliyyətinin yekunlarına dair**
**H E S A B A T I**

Müstəqil Azərbaycanın Ulu Öndər Heydər Əliyev tərəfindən yaradılmış müəllif-hüquq sisteminin və Müəllif Hüquqları Agentliyinin müstəqillik dövründəki fəaliyyətinin 2013-cü ildə 20 ili tamam olmuşdur. Bu illər ərzində respublikamızda əqli mülkiyyət, o cümlədən qeyri-maddi mədəni irsin qorunması sahəsində qanunvericilik, idarəçilik və məhkəmə sistemləri yaradılmış, müasir tələblər nəzərə alınmaqla təkmilləşdirilmiş və beynəlxalq standartlara uyğunlaşdırılmışdır.

Dövlət başçısının göstərdiyi qayğı və dəstək sayəsində "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında müəlliflik hüququ və digər əqli mülkiyyət hüquqları prioritet istiqamət kimi qəbul olunmuş, "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Qanun qəbul edilmiş, müəlliflik hüququ və digər əqli mülkiyyət hüquqlarının inkişafına aid Uzunmüddətli Milli Strategiyanın layihəsi təkmilləşdirilmiş, Aİ-nın Tvinninq Proqramı çərçivəsində ölkəmizdə əqli mülkiyyət hüquqlarının həyata keçirilməsi sahəsində potensialların artırılması üzrə tədbirlər həyata keçirilmişdir.

Müəllif Hüquqları Agentliyinin müstəqillik dövründəki fəaliyyətinin 20 illiyi münasibəti ilə və müəllif hüquqlarının qorunmasında səmərəli fəaliyyətlərinə görə 2013-cü ildə Agentliyin 4 əməkdaşı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən orden və medallarla təltif edilmişdir.

**1. Qanunvericilik və normativ hüquqi baza.** Müəllif Hüquqları Agentliyi öz Əsasnaməsinə uyğun olaraq 70-dən çox funksiya yerinə yetirir. Funksiyalar çərçivəsində əsas hədəflərdən biri müəllif-hüquq sahəsi üzrə normativ-hüquqi bazanın təkmilləşdirilməsidir.

Sahə qanunvericiliyinin təkmilləşdirilməsi prosesi 2013-cü ildə də davam etdirilmişdir. Həyata keçirilən tədbirlər çərçivəsində 2012-ci ildə qəbul edilmiş "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Qanunun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyul tarixli 668 nömrəli Fərmanına uyğun olaraq Agentliyin təklifləri nəzərə alınmaqla İnzibati Xətalar, Cinayət və Cinayət Prosessual məcəllələrinə, "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "Məlumat toplularının hüquqi qorunması haqqında" və "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında", "Nəşriyyat işi haqqında" qanunlara və Müəllif Hüquqları Agentliyinin Əsasnaməsinə müvafiq dəyişikliklər edilmişdir.

"Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Qanunun icrasının təmin edilməsi və piratçılıqla mübarizənin daha da gücləndirilməsi məqsədi ilə İnzibati Xətalar Məcəlləsinə dəyişikliklər edilmişdir. Dəyişikliklərə əsasən, (Məcəllənin 229-1-ci maddəsi) nəzarət markası yapışdırılmadan müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin (audiovizual əsər, fonoqram, kompüter proqramı, kitab) nüsxələrinin kommersiya məqsədi ilə

satışı və ya yayılma məqsədi ilə saxlanması, istehsal binasının hüdudlarından kənara çıxarılması, satılması və ya digər üsullarla yayılması hallarına görə hər bir belə nüsxəyə görə fiziki şəxslərə **50** manat, vəzifəli şəxslərə **100** manat, hüquqi şəxslərə **150** manat miqdarında cərimə tətbiq ediləcəkdir.

"Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Qanunun icrasını təmin etmək və piratçılıqla mübarizəni daha da gücləndirmək məqsədi ilə İnzibati Xətalar Məcəlləsinə edilmiş digər dəyişikliklərdə (Məcəllənin 205-1-ci maddəsi) isə müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin (audiovizual əsər, fonoqram, kompüter proqramı, məlumat toplusu, kitab) nüsxələrinə yapışdırılmaq üçün verilmiş nəzarət markalarının qəsdən məhv edilməsinə, saxtalaşdırılmasına, qeyri-qanuni yolla hazırlanmasına, istifadəsinə və satışına görə fiziki şəxslərə 1 000 (bir min) manat, vəzifəli şəxslərə 2 000 (iki min) manat və hüquqi şəxslər 3 000 (üç min) manat miqdarında cərimənin tətbiq edilməsi nəzərdə tutulur.

Qeyd edilən əməllərə görə cinayət məsuliyyəti yarandıqda Cinayət Məcəlləsinə edilmiş dəyişikliklərə (Məcəllənin 205-2-ci maddəsi) uyğun olaraq, hüquq pozuntusuna yol vermiş şəxs 3 000 (üç min) manat miqdarında cərimə və ya 320 saatdan 480 saatadək ictimai işlərlə cəzalandırılacaqdır. Eyni əməllər təkrar törədildikdə, qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə, yaxud külli miqdarda ziyan vurmaqla törədildikdə 7 000 (yeddi min) manat miqdarında cərimə və ya 2 ildən 4 ilədək müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulur. Saxta nəzarət markalarının hazırlanmasında (istehsal edilməsində) və yayılmasında istifadə olunan materiallar, avadanlıqlar və hüquqpozmaya səbəb olan digər vasitələr müsadirə ediləcəkdir.

> **Qeyd:** Cinayət Məcəlləsinin 205-2-ci maddəsində **"xeyli miqdar"** dedikdə 1 000 (bir min) manatdan 7 000 (yeddi min) manatadək olan məbləğ, **"külli miqdar"** dedikdə 7 000 (yeddi min) manatdan yuxarı olan məbləğ başa düşülür.

"Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Qanunun icrasını təmin etmək məqsədi ilə Nazirlər Kabineti tərəfindən aşağıda göstərilən 3 yeni qərar qəbul olunmuşdur:

**1.** "Nəzarət markalarının və beynəlxalq standart eyniləşdirmə nömrələrinin verilməsindən əldə olunan vəsaitdən istifadə edilməsi və həmin vəsaitdən istifadə haqqında hesabatın dərc olunması Qaydası"nın təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin 2013-cü il 18 yanvar tarixli 8 №-li Qərarı;

**2.** "Nüsxələrinə nəzarət markası yapışdırılması nəzərdə tutulan müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin (audiovizual əsər, fonoqram, kompyuter proqramı, məlumat toplusu, kitab) dövlət reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin 2013-cü il 18 yanvar tarixli 9 №-li Qərarı;

**3.** "Beynəlxalq standart eyniləşdirmə nömrələrinin verilməsi Qaydaları"nın və "Beynəlxalq standart eyniləşdirmə nömrələrinin verilməsinə görə haqqın

məbləği"nin təsdiq edilməsi barədə" Nazirlər Kabinetinin 2013-cü il 14 mart tarixli 44 №-li Qərarı.

Yaxın vaxtlarda göstərilən Qanunun icrasını təmin etmək məqsədi ilə aşağıda göstərilən daha iki hökumət qərarının qəbul ediləcəyi gözlənilir:

**1.** "Nəzarət markalarının verilməsi və onlardan istifadə Qaydaları"nın təsdiq edilməsi haqqında;

**2.** "Nəzarət markasının alınmasına görə ödənilən haqqın məbləğinin təsdiq edilməsi barədə".

Müəllif Hüquqları Agentliyinin 29 avqust 2013-cü il tarixli 02 №-li qərarı ilə "İnteqral sxem topologiyalarının dövlət qeydiyyatı üçün iddia sənədinə daxil olan material və sənədlərin forma və məzmununa dair Təlimat" yeni redaksiyada təsdiq edilmişdir.

Müəllif-hüquq qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasından irəli gələn vəzifələrin Agentlik üzrə icrasını təmin edilmək məqsədi ilə konkret tədbirləri əhatə edən İş planı tərtib edilmiş və xüsusi işçi qrup yaradılmışdır. Qeyd edək ki, İnkişaf Konsepsiyasında əqli mülkiyyət prioritet sahələrdən biri kimi qəbul edilmiş və Agentliyin təklifləri əsasında İnkişaf Konsepsiyasına müəllif-hüquq məsələləri və qeyri-maddi irsin qorunması üzrə 8 tədbir daxil edilmişdir. Tədbirlərin 2-i ümumi, 6-ı isə konkret məsələləri əhatə edir.

Hesabat dövründə həmin məsələlərin hər biri üzrə Agentliyin səlahiyyətləri daxilində işlər görülmüş, aidiyyəti dövlət orqanalrı, həmçinin ictimai birliklər, eləcə də digər müvafiq qeyri-hökumət təşkilatları ilə məsləhətləşmələr aparılmış, bir sıra qanunvericilik aktlarının layihələri hazırlanmış və ya əvəllər hazırlanmış sənəd layihələri yenidən işlənilmiş, hüquqi maarifləndirmə məqsədi ilə tədbirlər, o cümlədən seminar və simpoziumlar keçirilmişdir.

İnkişaf Konsepsiyasının 6-cı bölməsinin ("İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı və informasiya cəmiyyətinə keçidin təmin edilməsi") müddəalarına uyğun olaraq, "İKT və əqli mülkiyyətin qarşılıqlı təsiri və əqli mülkiyyət hüquqları ilə qorunan bir çox obyektlərin qlobal rəqəmsal şəbəkəyə çıxışı nəzərə alınaraq, on-line lisenziyalaşmaya və one-stop-shops formatında xidmətlərin göstərilməsinə əsaslanan rəqəmsal hüquqları idarəetmə sistemi" yaradılmışdır. Sistemin idarəçiliyini həyata keçirəcək mütəxəssislərin ixtisas biliklərinin artırılması, texniki təchizat məsələlərinin həlli, aidiyyəti dövlət orqanları ilə əməkdaşlığın şərtlərinin və qaydalarının müəyyənləşdirilməsi məqsədi ilə hazırlanmış tədbirlər planı üzrə işlər davam etdirilir.

Hesabat dövründə İnkişaf Konsepsiyasının 7.2-ci yarımbölməsinin müddəalarından irəli gələn vəzifələrin (ödənişsiz əsaslarla fəaliyyət göstərən təlim resurslarının yaradılması, bu resursların müəllif-hüquq lisenziyaları ilə təmin olunmaqla, təhsil prosesinə inteqrasiya edilərək açıq istifadəyə verilməsi) yerinə yetirilməsi istiqamətində də Agentlik öz səlahiyyətləri daxilində tədbirləri davam etdirmişdir. Artıq Agentlik **"Müəllif-hüquq lisenziyaları ilə təmin olunan açıq təhsil resurslarının yaradılmasına dair Konsepsiya"** layihəsi

üzərində işi başa çatdırmışdır. Hazırda sənəd layihəsi Təhsil Nazirliyi ilə razılaşdırılır.

Azərbaycana məxsus mədəni sərvətlərin, o cümlədən muzeylərdə, kitabxanalarda və arxivlərdə qorunub saxlanılan və ictimai varidat sayılan mədəni irs və digər əqli mülkiyyət nümunələrinin mərkəzləşdirilmiş şəkildə rəqəmləşdirilməsi, mühafizəsi, hüquqi qorunması və beynəlxalq mübadiləsinin təşkili məqsədilə təşkilati işlərə başlanılmışdır.

İnkişaf Konsepsiyasının 10-cu bölməsinin ("Mədəni irsin qorunması və səmərəli idarə edilməsi"nə dair) müddəalarından irəli gələn vəzifələrin Agentlik üzrə icrasını təmin etmək məqsədi ilə **"Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin hüquqi qorunması, qeydiyyatı və dövlət reyestrinin aparılması Qaydaları"**nın layihəsi hazırlanmışdır. Layihə Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiası və digər aidiyyəti dövlət orqanalrı ilə razılaşdırılmış və təsdiq olunmaq üçün Nazirlər Kabinetinə təqdim edilmişdir. Layihə eyni zamanda Milli Fəaliyyət Qrupuna təqdim olunmuşdur

İnkişaf Konsepsiyasının müddəalarına uyğun olaraq ümumilikdə müəllif-hüquq sahəsi üzrə 3 qanun, 1 strategiya, 1 konsepsiya, 2 dövlət proqramı, 1 tədbirlər planı və Nazirlər Kabinetinin 8 qərar layihəsi hazırlanmalıdır.

Agentlik tərəfindən aşağıda göstərilən qanun və qərar layihələri aidiyyəti dövlət orqanları ilə razılaşdırılaraq Nazirlər Kabinetinə, həmçinin İnkişaf Konsepsiyası üzrə əlaqələndirici qurum olan İqtisadiyyat və Sənaye Nazirliyinə təqdim edilmişdir:

- "Rəqəmli şəbəkədə yayım təşkilatlarının hüquqlarının qorunması haqqında" Qanun layihəsi **(Qanun layihəsi 2008-ci il 02 iyul tarixli 288-1-2-4/2 nömrəli məktubla Nazirlər Kabinetinə təqdim edilmişdir)**;
- "Məlumat toplularının hüquqi qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilməsi barədə" Qanun layihəsi **(Qanun layihəsi 2011-ci il 22 avqust tarixli 660-1-3-5/2 nömrəli məktubla Nazirlər Kabinetinə təqdim edilmişdir)**;
- "Müəlliflik hüququ, əlaqəli hüquqlar və digər oxşar əqli mülkiyyət hüquqları obyektlərinin elektron ticarətinin tənzimlənməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin Qərar layihəsi (**Qərar layihəsi 07 iyul 2012-ci il tarixli 406-1-5/2 nömrəli məktubla Nazirlər Kabinetinə təqdim edilmişdir**);
- "Əlaqəli hüquqların obyektlərindən istifadəyə görə minimum tariflər haqqında" Nazirlər Kabinetinin Qərar layihəsi (**Qərar layihəsi 20 fevral 2008-ci il tarixli 56-1-4/2 nömrəli məktubla Nazirlər Kabinetinə təqdim edilmişdir**);
- "Əsərlərin dövlət varidatı elan edilməsi haqqında" Nazirlər Kabinetinin Qərar layihəsi **(Qərar layihəsi 23 avqust 2007-ci il tarixli 462-2-4/3 nömrəli məktubla Nazirlər Kabinetinə təqdim edilmişdir)**;
- "Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin hüquqi qorunması, qeydiyyatı və dövlət reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin Qərar layihəsi **(Qərar layihəsi aidiyyəti dövlət orqanları tərəfindən vizalanaraq 2012-ci ilin IV rübündə Nazirlər Kabinetinə təqdim edilmişdir);**

- “Əqli mülkiyyət sahəsində piratçılığa qarşı mübarizə üzrə Komissiyanın yaradılması haqqında” Nazirlər Kabinetinin Qərar layihəsi **(Qərar layihəsi 2012-ci il 05 yanvar tarixində Nazirlər Kabinetinə təqdim edilmişdir)**.

İnkişaf Konsepsiyasının müddəalarına uyğun olaraq, layihələri hazırlanmış və hazırda aidiyyəti dövlət orqanları, eləcə də əqli mülkiyyət üzrə beynəlxalq ekspertlərlə müzakirəsi davam etdirilən aşağıda göstərilən sənədlər 2014-cü ildə Milli Fəaliyyət Qrupuna təqdim ediləcəkdir:

- “Əmlak hüquqlarını kollektiv əsasda idarə edən ictimai birliklər (təşkilatlar) haqqında” Qanun layihəsi;
- “Əqli mülkiyyətə dair Milli Strategiya (2014-2020);
- “Müəllif-hüquq lisenziyaları ilə təmin olunan açıq təhsil resurslarının yaradılmasına dair Konsepsiya”;
- “Ümumi Daxili Məhsulda müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanan istehsalın (kreativ sənayenin) rolunun artırılması sahəsində 2015-2018-ci illər üçün Dövlət Proqramı”;
- “Müəlliflik hüququ, əlaqəli hüquqlar və digər oxşar əqli mülkiyyət hüquqlarının inkişafı üzrə 2014-2016-ci illər üçün Dövlət Proqramı”;
- “Rəqəmli hüquqların idarə edilməsi üzrə “on-line” lisenziyalaşmaya və “one-stop-shops” formatında xidmətlərin göstərilməsinə dair Tədbirlər Planı (2014-2020)”;
- “Müəlliflik hüququ və əlaqəli hüquqların pozulması ilə əlaqədar iddianın məbləğinin müəyyən edilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” Nazirlər Kabinetinin Qərar layihəsi;
- “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi ilə bağlı məsələlər haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 2 may tarixli 38 nömrəli qərarına dəyişikliklər edilməsi barədə” Nazirlər Kabinetinin Qərar layihəsi.

**Qeyd:** Yeni Gömrük Məcəlləsinin tətbiqi ilə əlaqədar Müəllif Hüquqları Agentliyinin təklifləri nəzərə alınmaqla tərkibində əqli mülkiyyət hüquqlarının obyektləri olan mallar üzərində gömrük nəzarətini təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti “Tərkibində əqli mülkiyyət hüquqlarının obyektləri olan malların reyestrinin aparılması Qaydaları”nın təsdiq edilməsi haqqında 2012-ci il 28 dekabr tarixli 323 nömrəli və “Tərkibində əqli mülkiyyət hüquqlarının obyektləri olan malların buraxılışının dayandırılması, buraxılışın dayandırılma müddətinin uzadılması, qəbul edilən qərarlar barədə ərizəçiyə və bəyannaməçiyə məlumat verilməsi Qaydaları” nın təsdiq edilməsi haqqında” 2013-cü il 25 iyun tarixli 163 nömrəli qərarlar qəbul etmişdir.

**2. Əsərlərin və digər əqli mülkiyyət obyektlərinin qeydiyyatı.** Azərbaycan MDB məkanında əsərlərin könüllü qeydiyyat sistemini tətbiq edən ilk ölkələrdən biridir. Ölkəmizdə əsərlərin qeydiyyat sisteminin tətbiqinə 1996-cı

ilin 12 mart tarixindən başlanılmışdır. 1996-cı ildən indiyədək Agentlikdə 9 mindən çox əsər və əlaqəli hüquqların obyektləri qeydiyyatdan keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" 2011-ci il 23 may tarixli Fərmanından irəli gələn məsələlərin Agentlik üzrə icrasını təmin etmək məqsədi ilə Agentliyin internet saytında xüsusi "Elektron xidmət" bölməsi yaradılmışdır. 2013-cü ildə 13 müəllifin 21 əsəri qeydiyyatdan keçirilmiş və əsərin qeydiyyatı haqqında 21 şəhadətnamə verilmişdir.

Müəllif (hüquq sahibi) Agentliyə gəlmədən www.copag.gov.az saytında yaradılmış "Elektron xidmət" bölməsinə daxil olmaqla əsərini qeydiyyatdan keçirə bilər. Hesabat dövründə 195 müəllifin 578 əsəri qeydiyyatdan keçirilmiş və qeydiyyatı haqqında 365 şəhadətnamə verilmişdir.

**1996-2013-cü illərdə qeydiyyatdan keçirilmiş əsərlərin ümumi sayı (faizlə)**




**Musiqi əsərləri – 31,86%**

**Ədəbi əsərlər – 24,89%**

**Elmi və tədris əsərləri – 17,63 %**

**Dizayn və dekorativ tətbiqi sənət əsərləri – 8,43%**

**Toplular – 3,64%**

**Multimediya əsərləri – 0,66%**

**Fonoqramlar və yayım təşkilatlarının verilişləri - 0,42%**

**Məlumat bazaları – 0,12%**

**Qeyd:** Qeydiyyatdan keçirilmiş obyektlər %-lə (1996-2013-cü illərdə qeydiyyatdan keçirilmiş əsərlərin ümumi sayı – 9133), o cümlədən 2013-cü ildə qeydiyyatdan keçirilmiş əsərlərin sayı -578

**3. Hüquqların təminatı və əqli mülkiyyət mədəniyyətinin formalaşdırılması.** Ölkəmiz piratçılığa qarşı beynəlxalq səviyyədə mübarizənin fəal iştirakçılarından biridir. Piratçılığın səviyyəsinin azaldılması istiqamətində görülən tədbirlər müsbət nəticələr verir: kitab nəşri sahəsində piratçılığın səviyyəsi 2005-ci illə müqayisədə **61%**-dən **30%**-ə, audio-video məhsul bazarında **90%**-dən **67%**-ə, proqram təminatında **96%**-dən **87%**-ə düşmüşdür. Bu rəqəmlər Müəllif Hüquqları Agentliyi, eləcə də Beynəlxalq Biznes Proqram Təminatı Alyansı (Busnes Softfer Alyans) tərəfindən aparılan monitorinq-müşahidələr nəticəsində müəyyən edilmişdir.

2005-ci illə müqayisədə 2013-cü ildə ölkəmizdə piratçılığın səviyyəsi aşağıdakı kimi olmuşdur:




Proqram təminatının qanunsuz yayımını həyata keçirən hüquqi və fiziki şəxslərin müəyyənləşdirilməsi məqsədi ilə Müəllif Hüquqları Agentliyinin, Daxili İşlər Nazirliyi Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin və "Microsoft"un Azərbaycan Nümayəndəliyinin əməkdaşlarının birgə iştirakı ilə Bakı şəhərindəki kompüter satışı mağazalarında monitorinq aparılmışdır. Ölkədəki piratçılığın səviyyəsi ictimaiyyətə təqdim olunur, onun qarşısının alınması istiqamətində aidiyyəti dövlət qurumları və qeyri-hökumət təşkilatları ilə birlikdə tədbirlər davam etdirilir.

Agentlikdə **960** nömrəli "Qaynar xətt" fəaliyyət göstərir. Məqsəd müəlliflərin, digər hüquq sahiblərinin, ictimai birliklərin və müəllif-hüquq məsələləri ilə maraqlanan şəxslərin sorğularını operativ şəkildə cavablandırmaq və Agentliyin səlahiyyətləri çərçivəsində müvafiq köməkliyin göstərilməsidir. Hesabat dövründə "Qaynar xətt"ə 700-ə yaxın müraciət daxil olmuşdur. Agentlikdə ictimai əsaslarla fəaliyyət göstərən "Hüquq məsləhətxanası"na isə 2013-cü ildə 500-dən çox vətəndaş müraciət etmişdir.

2013-cü ildə müəlliflər və hüquq sahiblərinin müraciətləri üzrə bir iddia ərizəsi tərtib edilmiş, dövlət və məhkəmə orqanlarının sorğuları əsasında **9** ekspert rəyi hazırlanmışdır.




Əqli mülkiyyət mədəniyyətinin formalaşdırılmasının vacibliyini nəzərə alaraq, 10 konfrans, seminar və dəyirmi masa keçirilmiş, kütləvi informasiya vasitələrində **80**-dən çox məqalə və müsahibə dərc olunmuş, TV və radio kanallarında çoxsaylı verilişlər hazırlanmış və süjetlər göstərilmiş, **10**-dan çox prezentasiya olmuşdur.




Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Tvinninq layihəsi çərçivəsində Almaniyanın əqli mülkiyyət üzrə ixtisaslaşdırılmış məhkəmələrinin təcrübəsi ilə tanış olmaq üçün Berlin və Hamburq şəhərlərində olmuşdur. Agentliyin mütəxəssisləri isə təcrübə mübadiləsi məqsədi ilə Almaniya, İtaliya, İspaniya, Rumıniya və Yunanıstana ezam edilmişlər. Əqli mülkiyyət üzrə təcrübəli beynəlxalq ekspertlər və müəllif cəmiyyətlərinin nümayəndələri Bakıda hüquq mühafizə orqanlarının nümayəndələri, hakimlər, ictimai birliklərin və əsərlərin istifadəçisi olan təşkilatların nümayəndələri qarşısında prezentasiyalarla çıxış etmişlər.

Ümumdünya Gömrük Təşkilatının, ÜƏMT-nin, İnterpolun birgə təşkilatçılığı ilə 2013-cü il 24-26 aprel tarixlərində Türkiyənin İstanbul şəhərində piratçılıqla

mübarizə mövzusunda 7-ci Qlobal Konqres keçirilmişdir. 100 ölkəni təmsil edən 850 nəfər nümayəndənin iştirak etdiyi tədbirdə Müəllif Hüquqları Agentliyinin nümayəndəsi piratçılığa qarşı mübarizədə Azərbaycan təcrübəsi barədə məlumat vermişdir.

Agentlik tərəfindən 2013-cü ildə aşağıdakı tədbirlər keçirilmişdir:

1. "Müəlliflik hüquqlarının təminatının gücləndirilməsində mütəxəssislərin peşəkarlığının artırılması" mövzusunda beynəlxalq seminar;

2. "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Qanunun icrasında hüquq-mühafizə orqanlarının rolu" mövzusunda beynəlxalq seminar;

3. "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Qanunun icrasında məhkəmələrin rolu" mövzusunda beynəlxalq seminar;

4. "Azərbaycanda əqli mülkiyyət hüquqlarının təminatının gücləndirilməsi" mövzusunda beynəlxalq seminar-diskussiya;

5. "Erməni müəlliflərinin kitablarındakı uydurmalara "müəlliflik hüququ" mövzusunda simpozium;

6. Müəllif Hüquqları Agentliyi, ÜƏMT və Avropa İttifaqının TVİNNİNQ layihəsinin birgə təşkilatçılığı ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş "Azərbaycan 2020: Əqli mülkiyyətin gələcəyinə baxış" mövzusunda beynəlxalq simpozium;

7. ABŞ-ın USAID təşkilatının ekspertinin iştirakı ilə "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Qanunun icrasında nəşriyyatların rolu" mövzusunda dəyirmi masa;

8. Müəllif Hüquqları Agentliyinin müstəqillik dövründəki fəaliyyətinin 20 illiyinə həsr edilən "Azərbaycanın müəllif-hüquq sistemi 20 ildə" mövzusunda beynəlxalq konfrans;

9. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 28 mart tarixli 2815 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2013-cü ilin "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilməsi ilə bağlı Tədbirlər Planı" çərçivəsində "Virtual məkanda əqli mülkiyyət hüquqlarının qorunması" mövzusunda elmi-praktik konfrans.

Agentlikdə müəllif-hüquq obyektlərinin (audiovizual əsər, fonoqram, kompüter proqramı, məlumat toplusu, kitab) nüsxələrinə yapışdırılan nəzarət markalarının fərdiləşdirilməsi üzrə elektron sistem yaradılmışdır. Həmçinin Smart tipli mobil telefon vasitəsi ilə nəzarət markası yapışdırılan müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin (audiovizual əsər, fonoqram, kompüter proqramı, kitab) nüsxələrinin orijinallığını müəyyən edən "Track & Trace" sistemi (nəzarət markalarının və nüsxələrin qanuniliyinin "izlənməsi" sistemi) quraşdırılmışdır.

Müəlliflərin, hüquq sahiblərinin, mütəxəssislərin, tələbələrin və tədqiqatçı alimlərin əqli mülkiyyət sahəsində biliklərinin artırılması məqsədi ilə Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzində isə interaktiv Təlim-Tədris Mərkəzi fəaliyyətə başlamışdır. Əqli mülkiyyət hüquqlarının təminatına dair

Təlim-Tədris Mərkəzində Agentliyin mütəxəssisləri üçün ilk məşğələ keçirilmişdir.

Əqli mülkiyyət hüquqlarının qorunmasında maarifləndirmə işinin əhəmiyyətini nəzərə alaraq, hesabat ilində "Əqli mülkiyyət çıxış və prezentasiyalarda" 2 cildlik toplu, "Əqli mülkiyyət hüquqları (məqalələr toplusu), "Azərbaycanın milli müəllif-hüquq sistemi 20 ildə" kitabı buraxılmış, "Əqli mülkiyyət hüquqları (1-ci cild)" kitabı çapa hazırlanmış, müəllif-hüquq sahəsi üzrə 7 beynəlxalq konvensiya, müqavilə və saziş, Azərbaycan Respublikasının 5 Qanunu və Agentliyin Əsasnaməsi Azərbaycan, rus və ingilis dillərində, Azərbaycan Respublikasının Hökumətlərarası sazişləri isə Azərbaycan və rus dillərində çap edilmiş, keçirilən tədbirlərdə təbliğat vasitəsi kimi paylanmışdır.

**4. Erməni plagiatçılığına qarşı mübarizə.** Xalqımızın ənənəvi mədəni nümunələrinin (folklor nümunələrinin) və ənənəvi biliklərinin, sistemli şəkildə öyrənilərək hüquqi qorunması, erməni plagiatçılığının ifşa edilməsi Müəllif Hüquqları Agentliyinin prioritet fəaliyyət istiqamətlərindən biridir. Milli təfəkkür və fərdi təəssübkeşlik, etnik dərketmə və fərdi səciyyə, mənəvi dəyərlər və fərdi fəaliyyət stereotipləri-bütün bunlar doğma yurdumuzla, əcdadlarımızla bağlıdır. Buna görə də xalqımızın mədəni irsində əks olunan mənəvi qaydalar, cəmiyyətimizin mülkiyyət qaydaları kimi hüquqi qorunma haqqına layiqdir və bu cür hüquqi qorunmanın yaradılması ən vacib işlərimizdən biridir.

Dövlətimizin başçısının dəstəyi və səyləri nəticəsində folklor nümunələrinin hüquqi qorunması haqqında Şərqi Avropa və MDB ölkələri arasında ilk qanun Azərbaycanda qəbul edilmişdir. Folklor nümunələrimizin və xalqımıza məxsus ənənəvi biliklərin ictimai varidat kimi qorunması Agentliyin təklifləri əsasında "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanunda da təsbit edilmişdir. Qeyri-maddi irsin, o cümlədən ənənəvi biliklərin və Azərbaycana məxsus mətbəx nümunələrinin hüquqi qorunması ilə bağlı məsələlərə dair Agentlik tərəfindən "Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin hüquqi qorunması, qeydiyyatı və dövlət reyestrinin aparılması qaydalarının təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin qərar layihəsi hazırlanmışdır. Qərar layihəsi aidiyyəti dövlət orqanları ilə razılaşdırılaraq, baxılmaq üçün Nazirlər Kabinetinə təqdim edilmişdir. Məqsəd ənənəvi mədəni nümunələrin və ənənəvi biliklərin hər bir növünün xalqa məxsus olan mülkiyyət kimi qorunub-saxlanmasını, onların başqaları tərəfindən, xüsusən ermənilər tərəfindən oğurlanaraq, mənimsənilməsi və özününküləşdirilməsi hallarının qarşısının alınmasını təmin edən hüquqi qorunma rejimini yaratmaqdan ibarətdir.

Agentlik 2009-cu ildən başlayaraq ardıcıl və sistemli şəkildə erməni plagiatçılığının ifşasına həsr olunan beynəlxalq və milli seminarlar, simpoziumlar, elmi-praktik konfranslar keçirir. Bu tədbirlər eyni zamanda on line rejimində Azərbaycan, ingilis və rus dillərində birbaşa yayımlanır. 2013-cü ildə "Erməni müəlliflərinin kitablarındakı uydurmalara "müəlliflik hüququ" mövzusunda simpozium keçirilmişdir. Tədbir 43 sayt vasitəsilə on-line rejimdə üç dildə (Azərbaycan, ingilis və rus dillərində) birbaşa internetdə yayımlanmışdır.

Ermənilərin uydurma və absurd fikirlərinin ifşasına həsr olunmuş «Erməni yadelli nağılları» (müəllif Kamran İmanov) kitabı Azərbaycan dilində çapdan buraxılmışdır. Bundan əvvəl ingilis, rus və fransız dillərində kütləvi tirajla nəşr olunmuş kitab Xarici İşlər Nazirliyi və Diasporla İş üzrə Dövlət Komitəsinin xətti ilə dünyaya yayılmış, tanınmış kitabxanalara çatdırılmış və onun elektron versiyası müxtəlif informasiya agentliklərinin saytlarında yerləşdirilmişdir. Hesabat dövründə də folklor nümunələrimizin və müəllif əsərlərimizin ermənilər tərəfindən oğurlanması faktları barədə ÜƏMT-yə, YUNESKO-ya və digər beynəlxalq təşkilatlara məlumatlar və etiraz məktubları göndərilmişdir.

AzərTAC, APA, 1news.az, Day.az, İnterfax-Azərbaycan informasiya agentlikləri, müxtəlif yayım kanalları və digər KİV-lər vasitəsi ilə ermənilər tərəfindən zaman-zaman erməni nümunələri kimi qələmə verilmiş və ya ifa edilmiş Azərbaycan xalq mahnıları, xalq rəqslərimiz, dastanlarımız, o cümlədən "Dədə Qorqud" qəhrəmanlıq dastanı, milli musiqi alətlərimiz və milli mətbəx nümunələrimizin etimologiyası, yaranma tarixi, milli xüsusiyyətləri barədə şərhlər, bəyanatlar və etirazlar bildirilmişdir.

Hazırda Agentlik tərəfindən erməni uydurmalarını ifşa edən "Erməni tarixi uydurmalarının tarixinə giriş" adlı daha bir kitab (müəllif Kamran İmanov) çapa hazırlanmışdır. Kitabın xarici dillərə tərcüməsi nəzərdə tutulmuşdur.

Qeyd olunan məsələ üzrə hüquqi baza yaratmaq üçün hazırda Milli Məclisin müzakirəsinə hazırlanan "Elm haqqında" Qanun layihəsinə Agentlik tərəfindən bir sıra təkliflər verilmişdir. O cümlədən Agentlik təklif etmişdir ki, dövlət tərəfindən müəyyən edilən Azərbaycanşünaslıq sahəsində aparılan tədqiqatların strateji prioritetləri sırasına Azərbaycan tarixinin, milli mədəni irsinin, abidələrinin və xalqının etnogenezinin öyrənilməsi də daxil edilsin. Həmçinin bu sahədə nəşrlərin, filmlərin və digər materialların hazırlanmasında vahid dövlət mövqeyinin təmin edilməsi məqsədi ilə tədbirlər görülsün. Şübhəsiz ki, bu sıraya Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsi və ermənişünaslıqla bağlı aparılan tədqiqatlar da daxildir.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası"nda artıq bu məsələ ilə bağlı Agentliyin təklifləri nəzərə alınmışdır. İnkişaf Konsepsiyasına uyğun olaraq "Qeyri-maddi mədəni irsin tərkib hissələrinin qorunub saxlanılması, bu sahədə qanunsuz mənimsənilmələrin və əsassız itkilərin qarşısının alınması, folklor nümunələrinin və ənənəvi biliklərin YUNESKO-nun xüsusi qorunma siyahısına daxil edilməsi üçün əlavə tədbirlər həyata keçiriləcək, həmçinin milli qanunvericiliyin kompleks şəkildə təkmilləşdirilməsi, müəlliflik hüququnun və əlaqəli hüquqların qorunması, beynəlxalq normativ hüquqi bazanın tətbiqi və inkişafında iştirak təmin ediləcəkdir. Azərbaycana məxsus mədəni sərvətlərin, o cümlədən muzeylərdə, kitabxanalarda və arxivlərdə qorunub-saxlanılan və ictimai varidat sayılan mədəni irs və digər əqli mülkiyyət nümunələrinin mərkəzləşmiş şəkildə rəqəmləşdirilməsi, mühafizəsi, hüquqi qorunması və beynəlxalq təşkilatlarla, həmçinin xarici dövlətlərin aidiyyəti qurumları ilə mübadiləsi təmin ediləcəkdir"

(İnkişaf Konsepsiyasının 10-cu bölməsi. “Mədəni irsin qorunması və səmərəli idarə edilməsi”).

Bununla əlaqədar muzeylərdə, kitabxanalarda və arxivlərdə qorunub-saxlanılan və ictimai varidat sayılan mədəni irs və digər əqli mülkiyyət nümunələrinin nümunələr haqqında məlumatların mərkəzləşdirilmiş qaydada rəqəmləşdirilməsi, mühafizəsi, hüquqi qorunması və beynəlxalq mübadiləsinin təşkili məqsədi ilə Agentlikdə tezliklə xüsusi sistem işə başlayacaqdır.

**5. Əqli mülkiyyətin iqtisadi inkişafın vacib alətinə çevrilməsi.** Ölkənin Ümumi Daxili Məhsulunda (ÜDM-də) müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanan sənayenin (kreativ sənayenin) payı getdikcə artmaqdadır. Müəllif Hüquqları Agentliyində aparılan araşdırlmalar göstərir ki, son 5 ildə Azərbaycanda kreativ sənaye sürətlə inkişaf etməkdədir. Son 10 ildə ölkənin ÜDM-ində müəlliflik hüququna əsaslanan «kreativ ssənaye»nin payı 2003-cü ildə 2,1%-dən 2013-cü ilin əvvəlinə olan vəziyyətə görə 4,6%-ə çatmış və hazırda inkişaf etmiş ölkələr səviyyəsindədir.

**ÜDM-də KREATİV SƏNAYENİN XÜSUSİ ÇƏKİSİ**




Qeyd: 2013-cü il 1 yanvara olan vəziyyətə görə

Bu artım ölkəmizdə həyata keçirilən çoxşaxəli iqtisadi islahatların uğurlu nəticələri ilə bağlıdır. Dünya İqtisadi Forumunun (DİF-un) “Dünya Rəqabətlilik Hesabatı”nda rəqabətqabiliyyətlilik indeksi statistik məlumatlar və sorğular nəticəsində 113 parametrdən ibarət olan və 12 göstəriciyə əsaslanan dünya iqtisadiyyatını təsvir edən ən etibarlı və nüfuzlu göstəricidir. 113 parametrdən üçdə ikisi ölkədəki biznes strukturlarının qlobal sorğusu əsasında məlumatlardan, qalan üçdə biri isə əldə edilə bilən statistik materiallar və beynəlxalq təşkilatların xüsusi olaraq apardığı araşdırmaların nəticələrini əks etdirən məlumatlardır. Araşdırmaların içərisində: iqtisadi-hüquqi mühit, o cümlədən dövlət institutlarının fəaliyyəti, infrastruktur, makroiqtisadi stabillik (davamlılıq), səhiyyə (sağlamlıq), ibtidai təhsil, ali təhsil və peşə hazırlığı, əmtəə bazarının səmərəliliyi, əmək bazarının səmərəliliyi, maliyyə sektorunun inkişafı, texnoloji

inkişaf, daxili bazarın həcmi, şirkətlərin rəqabətqabiliyyətliliyi və innovasiya potensialı göstəriciləridir.

Yuxarıda qeyd etdiyimiz 12 göstərici üç altindeksi - "Ümumi tələblər", "Səmərəliliyin gücləndiriciləri" və "İnnovasiya və inkişafetmə" indekslərini əhatə edir.

Dünya İqtisadi Forumunun 2013-2014-cü illər üçün Hesabatına əsasən, bilavasitə əqli mülkiyyət institutlarının səviyyəsinə görə Azərbaycan dünya ölkələri arasında 69-cu yeri tutaraq MDB məkanında şəksiz liderdir: ölkəmiz Qazaxıstanı 4 pillə, Rusiyanı 44 pillə və Ukraynanı 64 pillə üstələyir.

Azərbaycan bu göstərici üzrə Şərqi Avropanın əksər dövlətlərindən, o cümlədən Polşa (72 yer), Çernoqoriya (76), Xorvatiya (81), Bolqarıstan (104), Rumıniya (110), Albaniya (114), Serbiya (115), Bosniya və Hersoqovinadan (135) irəlidədir. 3,7-ə bərabər olan bu göstəriciyə əsasən Azərbaycan inkişaf etmiş ölkələrdən İtaliya və Yunanıstandan geri qalmır və güclü inkişafda olan Hindistanı və Braziliyanı üstələyir.

Digər komponentlərlə yanaşı, əqli mülkiyyətin qorunmasını dolayısı yolla əks etdirən innovasiyalar göstəricisinə görə də Azərbaycan 51-ci yeri tutaraq MDB dövlətləri arasında birinci yeri tutur.

Bu da təsadüfi deyil. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında əqli mülkiyyət prioritet istiqamətlərdən biri kimi müəyyən edilmişdir.

İKT-nın prioritet inkişafından çıxış edərək, Konsepsiya informasiya cəmiyyətinə keçilməsinin sürətləndirilməsi üçün İKT-İT qarşılıqlı əlaqələrinin daha da aktivləşdirilməsini, əqli mülkiyyət obyektlərinin əksəriyyətinin qlobal rəqəmli şəbəkəyə keçməsi ilə əlaqədar isə On-line liseziyalaşma rejimində rəqəmli hüquqların idarə edilməsi və "one-stop-shop" formatında elektron xidmətlərin göstərilməsi sisteminin yaradılmasını nəzərdə tutur. Bu sistemin əsasları artıq Azərbaycanın Aİ-nın bir sıra ölkələri ilə əməkdaşlığı çərçivəsinə qoyulmuşdur. Bu vəzifələr Azərbaycanın analoqu olmayan "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Qanunundan, Müəllif Hüquqları Agentliyinin tabeçiliyində Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin yaradılması haqqında Hökumətin qərarından irəli gəlir.

Rəqəmsal hüquqların idarə edilməsi ilə yanaşı, Mərkəz müəlliflik hüququna əsaslanan məhsulların (kitablar, audio-, video-, CD, DVD, proqram təminatı və s.) xüsusi nəzarət markaları ilə təchiz olunması məsələlərinin tənzimlənməsini təmin edir. Sistemin əsas xüsusiyyəti onunla bağlıdır ki, o, xüsusi SMART-texnologiya ilə təchiz olunmuşdur, bu da hər bir nəzarət markasının "həyat dövranını" izləməyə və uzaq məsafədən Smartfon tipli mobil telefonlar vasitəsi ilə onun legitimliyini dəyərləndirməyə imkanı verir.

Hazırda "Ümumi Daxili Məhsulda müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanan istehsalın (kreativ sənayenin) rolunun artırılması sahəsində 2015-2018-ci illər üçün Dövlət Proqramı"nın layihəsi hazırlanır.

Dövlət Proqramı" aşağıdakı məsələləri əhatə edir.

- kreativ sənaye sahələrində yaradıcılığa dəstək üçün şəraitin yaradılması (təşkilatı, tədris, maliyyə - qeyri kommersiya dövlət yardım fondu);

-ənənəvi mədəniyyət təsisatlarının fəaliyyətinin modernləşdirilməsi və genişləndirilməsi;

- mədəniyyət və yaradıcılıq sektorlarında istehlak mallarının və xidmətlərinin spektrinin genişləndirilməsi;

-mədəni-yaradıcılıq proseslərinə art (incəsənət), media, rəqəmsal texnologiyaların tətbiqində yardım;

- İçərişəhər və Lahıc kimi "kreativ (mədəni) klasterlər"in (ərazilərin) formalaşdırılamsı;

- kreativ sənaye sferasına daxil olan bütün istehsal sahələrinin inkişafına yardım.

"Kreativ sənaye" dedikdə reklam, memarlıq, təsviri incəsənət muzeyləri, antik əşyalar, dekorativ incəsənət və sənətkarlıq, dizayn, moda, kino və video sənayesi, əyləncəli interaktiv proqramlar (televiziya və radio-sənaye, o cümlədən kabel və peyk TV-ləri), musiqi sənayesi (səsyazma), ifa sənəti, ədəbiyyat, nəşr fəaliyyəti, proqram təminatı və kompüter xidmətləri (İnternet-sənaye, saytların, portalların yaradılması) başa düşülür.

Hər bir ölkədə kreativ sənaye sferasına daxil edilən istehsal sahələrinin siyahısı fərqlidir və dövlətin konkret maraqlarından və yerli biznesdən asılıdır. Məsələn, Honkonqda qumar oyunları, təhsil, idman, turizm və konsaltinq xidmətləri, Finlandiyada isə attraksionlar və rekreasiya fəaliyyəti kreativ sənayeyə aid edilir.

**6. Elektron xidmətlərin təşkili ilə əlaqədar görülmüş işlər.** Azərbaycan Respublikası Prezidentinin "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" 2011-ci il 23 may tarixli Fərmanından irəli gələn tapşırıqların icrasını təmin etmək məqsədilə Agentliyin **www.copag.gov.az** saytı təkmilləşdirilərək qoyulan tələblərə uyğunlaşdırılmış, saytın dizaynı yenilənmiş, materiallar növlərinə görə müvafiq bölmələrdə yerləşdirilmişdir. Həmçinin elektron xidmətlər göstərilməsi üçün Elektron xidmət bölməsi və bu bölmədə istifadəçilər üçün məlumat bazaları olan idarəetmə paneli yaradılmış, bölmədə müəlliflik hüququ obyektlərinin qeydiyyatı qaydaları, təlimatlar, ərizə blanklarının elektron forması yerləşdirilmiş, şəxslərin elektron xidmətlər bölməsindən maneəsiz, sərbəst istifadəsi təmin olunmuş, elektron müraciətlərə qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətdə baxılması təmin edilmiş, göstərilən elektron xidmətlərin inzibati reqlamentləri hazırlanmış və Hüquqi Aktların Dövlət Reyestrində müvafiq qaydada qeydiyyata alınmışdır. Agentlik həmçinin Elektron Hökumətin Dövlət İnformasiya Sisteminə (EHDİS) qoşulmuşdur.

İl ərzində müəlliflərə elektron xidmət göstərilmiş, 21 müəllifin müraciətinə baxılmış, 13 müəllifin 21 əsəri elektron qaydada qeydiyyatdan keçirilmişdir.

Həmçinin, fiziki və hüquqi şəxslərin on-line müraciəti və onların elektron poçt vasitəsi ilə cavablandırılması, sənədlərin elektron dövriyyəsi, on-line ödəniş sistemi təmin edilmişdir.

Bununla yanaşı, Agentliyin digər dövlət orqanları ilə mübadilə üçün nəzərdə tutulan informasiya ehtiyatının uyğunlaşdırılması və inteqrasiyası ilə bağlı proqram təminatının hazırlanması, server və şəbəkə avadanlıqlarının fəaliyyətini real vaxt rejimində izləməyə imkan verən monitorinq sisteminin tətbiqi, daxili elektron sənəd dövriyyəsi sisteminin yenidən qurulması üzrə müvafiq tədbirlər, həmçinin "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Qanunun icrası ilə əlaqədar yeni elektron xidmətlərin yaradılması üzrə hazırlıq işləri davam etdirilir.

Hesabat ilində Azərbaycanın İnternet məkanında yerləşən və rəsmi qeydiyyatdan keçmiş veb-saytlarda əqli mülkiyyət sahəsi ilə bağlı materiallar müntəzəm olaraq izlənmiş və lazımi materialların surətləri çıxarılaraq işdə istifadə edilmək üçün aidiyyəti üzrə təqdim edilmiş, həmçinin əqli mülkiyyətlə bağlı informasiyaların elektron bazası yaradılmışdır.

Agentlikdə İnternetin paylaşdırılması üçün yaradılmış İSA serverin saz vəziyyətdə saxlanması və hər həftə sonu təmizlənməsi, istifadəçilərin gündəlik, həftəlik, aylıq hesabatlarının təqdim edilməsi, kompüter parkının proqram və texniki nasazlıqlarının aradan qaldırılması, yeni alınmış avadanlıqların zəruri proqram təminatı və işlək vəziyyətə gətirilməsi kimi işlər həyata keçirilmişdir.

Bununla yanaşı, "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Qanunun qəbul edilməsi ilə əlaqədar hazırda rəqəmsal şəbəkələrdə lisenziyalaşdırma və rəqəmli hüquqların idarə edilməsi üzrə elektron xidmətlər sisteminin qurulması, pərakəndə satışda yayılan əsərlərə, fonoqramlara, audiovizual əsərlərə və tərkibində əqli mülkiyyət olan digər mallara rəqəmsal kodların verilməsi, həmin obyektlərin elektron qeydiyyatının aparılması, müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanan mallara yapışdırılmaq üçün nəzarət markalarının alınmasına sifarişin elektron üsulla verilməsi və s. elektron xidmətlərin yaradılmasına hazırlıq işləri davam etdirilir.

Elektron imzanın və elektron sənədin istifadəsi, onların elektron sənəd dövriyyəsində tətbiq edilməsi və digər tədbirlərin həyata keçirilməsini reallaşdırmaq məqsədi ilə "Elektron imza və elektron sənəd haqqında Azərbaycan Respublikasının Qanuna uyğun olaraq, Agentliyin 6 nəfər əməkdaşına Milli Sertifikat Xidmətləri Mərkəzindən elektron imza sertifikatının alınması təmin edilmişdir.

**7. Beynəlxalq əməkdaşlıq.** Hesabat ilində ÜƏMT-nin inzibati idarəçiliyində olan müəllif hüquqları və əlaqəli hüquqlar sahəsində beynəlxalq müqavilə və sazişlərdən, həmçinin Azərbaycan Respublikası Hökuməti ilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı arasında imzalanmış Əməkdaşlıq Proqramından irəli gələn öhdəliklərdən irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün geniş beynəlxalq əməkdaşlıq aparılmış, ölkəmiz ÜƏMT-nin rəhbər orqanlarında təmsil olunmuşdur. Agentliyin nümayəndələri müxtəlif beynəlxalq tədbirlərdə, o cümlədən Ümumdünya Əqli Mülkiyyət Təşkilatı və Avropa İttifaqı ilə əməkdaşlıq çərçivəsində 15-ə yaxın beynəlxalq tədbirdə iştirak etmişlər.

İl ərzində Agentliyin nümayəndələri mütəmadi olaraq bilavasitə ÜƏMT-nin tədbirlərində, o cümlədən ÜƏMT-nin Baş Assambleyasının iclaslarında,

Diplomatik Konfansda, Əqli Mülkiyyət, Genetik Resurslar, Ənənəvi Biliklər və Folklor üzrə Hökumətlərarası Komitənin, ÜƏMT-nin Müəllif Hüququ və Əlaqəli Hüquqlar üzrə Daimi Komitəsinin, ÜƏMT-nin Əqli Mülkiyyət və İnkişaf üzrə Komitəsinin sessiyalarında, ÜƏMT çərçivəsində təmsil olunduğumuz Regional qrupun iclaslarında, ÜƏMT və ÜTT-nin məsafədən təhsil proqramlarında və digər tədbirlərin fəal iştirakçısı olmuşlar.

Hesabat ilinin 23 sentyabr – 2 oktyabr tarixlərində Ümumdünya Əqli Mülkiyyət Təşkilatının üzv-dövlətlərinin Baş Assambleyasının İsveçrənin Cenevrə şəhərində keçirilmiş 51-ci toplantısında ÜƏMT-nin rəhbər orqanlarına iki ildən bir keçirilən seçkilərdə Azərbaycan Respublikası ÜƏMT-nin "Ədəbi və bədii əsərlərin qorunması haqqında" Bern Konvensiyasına qoşulan ölkələrin Bern İttifaqının İcraçı Komitəsinə üzv seçilmişdir. Bununla ölkəmiz ÜƏMT-nin fəaliyyətinin həyata keçirilməsində xüsusi rola malik olan Əlaqələndirmə (Koordinasiya) Komitəsinin üzvü olmuşdur. Baş Assambleyada ölkəmiz daha bir komitənin - ÜƏMT-nin Proqram və Büdcə Komitəsinin üzvü seçilmişdir.

ÜƏMT-nin üç rəhbər orqanı vardır. Bunlar ÜƏMT-nin Baş Assambleyası, ÜƏMT-nin Konfransı və ÜƏMT-nin Əlaqələndirmə (Koordinasiya) Komitəsidir. ÜƏMT-nin Baş Assambleyası Paris və Bern İttifaqlarının üzvləri olan dövlətlərdən ibarətdir. Azərbaycan Respublikası Paris və Bern Konvensiyalarının üzvü olduğuna görə buraya daxildir.

ÜƏMT-nin Konfransına Təşkilatın üzv dövlətlərinin hamısı daxildir. ÜƏMT-nin Əlaqələndirmə (Koordinasiya) Komitəsinin tərkibi isə yalnız Paris və Bern İttifaqlarının üzvləri sırasından xüsusi olaraq İcraçı Komitələrə seçilmiş dövlətlərdən ibarət olur.

Baş Assambleyanın hesabat ilində keçirilmiş seçkilərində Azərbaycan Respublikası Ümumdünya Əqli Mülkiyyət Təşkilatının inzibati idarəçiliyində olan konvensiya və müqavilələrin Assambleyalarında da təmsil olunmuşdur. Belə ki, Müəllif Hüquqları Agentliyinin sədri K. İmanov iki il müddətinə ÜƏMT-nin Müəllif Hüququna dair Müqaviləsinin Assambleyasının sədri seçilmişdir. Bu Müqavilə yeni rəqəmli erada müəllif hüquqlarının qorunmasına hüquqi təminat yaradan beynəlxalq sazişdir. 2013-cü ilin əvvəlinə olan vəziyyətə görə 90 dövlətin üzvü olduğu həmin Müqaviləyə Azərbaycan Respublikası 2006-cı ildə qoşulmuşdur.

2013-cü ilin 17-28 iyun tarixlərində Mərakeş Krallığının Mərakeş şəhərində Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) çərçivəsində keçirilmiş Diplomatik Konfransda "Korların, görmə qüsurlu və çap informasiyasını qavramaq imkanı məhdud olan şəxslərin nəşr edilmiş əsərlərə girişini asanlaşdırmaq haqqında Mərakeş müqaviləsi" qəbul edilmiş, Azərbaycan 129 dövlətin sırasında bu müqavilənin qəbul edilməsi barədə Yekun Aktı imzalamış, Müəllif Hüquqları Agentliyinin nümayəndəsi Diplomatik Konfransın 186 dövlətin nümayəndələri arasından seçilmiş 17 nəfərdən ibarət Müqavilənin yekun mətnini hazırlayan Redaktə Komitəsinin üzvü seçilmişdir.

Bununla yanaşı, Azərbaycan Respublikası və Avropa İttifaqı arasında Avropa Qonşuluq Siyasəti çərçivəsində qəbul edilmiş Fəaliyyət Planının "Əqli və sənaye mülkiyyəti hüquqları" bölməsi üzrə nəzərdə tutulan tədbirlərin yerinə

yetirilməsi üçün il ərzində bir sıra işlər görülmüş, o cümlədən 12 fevral 2013-cü il tarixində Avropa İttifaqı ilə Müəllif Hüquqları Agentliyinin birgə təşkilatçılığı ilə Tvinninq layihəsi çərçivəsində "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə" haqqında Qanunun icrasında hüquq-mühafizə orqanlarının rolu" mövzusunda beynəlxalq konfrans keçirilmiş, il ərzində Aİ ölkələrinin mütəxəssislər qrupu ölkəmizdə olmuş, təcrübə mübadiləsi aparılmışdır.

Ənənəvi olaraq 2013-cü ildə də YUNESKO-nun elan etdiyi 23 aprel - «Ümumdünya Kitab və Müəllif Hüququ Günü» və ÜƏMT-nin elan etdiyi 26 aprel - «Beynəlxalq Əqli Mülkiyyət Günü» ölkəmizdə təntənəli şəkildə qeyd olunmuş, bu əlamətdar günlərlə əlaqədar Müəllif Hüquqları Agentliyi tərəfindən təsdiq edilmiş Tədbirlər planı əsasında geniş tərkibli tədbirlər təşkil edilmişdir.

Bu əlamətdar tarixi günlərin ölkəmizdə yüksək səviyyədə qeyd olunması məqsədi ilə tanınmış müəlliflərlə görüş keçirilmiş, respublikamızın müxtəlif bölgələrində kitab sərgiləri təşkil edilmiş, aprelin 23-də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş "Erməni müəlliflərinin kitablarındakı uydurmalara "müəlliflik hüququ" mövzusunda simpoziumu keçirilmişdir.

2013-cü il aprelin 26-da isə tarixində Müəllif Hüquqları Agentliyinin Avropa İttifaqı (Tvinninq layihəsi çərçivəsində) və ÜƏMT ilə birgə "Azərbaycan 2020: Əqli mülkiyyətin gələcəyinə baxış" mövzusunda beynəlxalq simpoziumu keçirilmişdir.

Bayram tədbirləri çərçivəsində ÜƏMT-nin Baş direktoru cənab F. Qarrinin "Beynəlxalq Əqli Mülkiyyət Günü" və YUNESKO-nun Baş katibi xanım İ. Bokovanın "Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü" münasibəti ilə müraciətləri Azərbaycan dilinə tərcümə edilərək yayılmışdır.

"Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü" və "Beynəlxalq Əqli Mülkiyyət Günü" münasibəti ilə keçirilən tədbirlərdə geniş ictimaiyyətin diqqəti bilik və informasiya mənbəyi olan kitablara və yaradıcılığa yönəldilmiş, eyni zamanda əqli mülkiyyətin sosial, iqtisadi və mədəni inkişafda oynadığı rol, müəlliflik hüququna əsaslanan sənayenin (kreativ sənayenin) müasir informasiya cəmiyyətində və biliklərə əsaslanan iqtisadiyyatda payı təhlil edilmiş, kitab sənayesi və müəlliflik hüququ sahəsində mövcud vəziyyət təhlil olunmuş, beynəlxalq təcrübə barədə məlumat verilmişdir.

Tədbirlərdə Nazirlər Kabinetinin, YUNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) Aparatının, nazirlik və komitələrin, Milli Elmlər Akademiyasının və digər dövlət və qeyri-hökumət təşkilatlarının nümayəndələri, yaradıcı şəxslər və digər hüquq sahibləri, nəşriyyat işçiləri və media nümayəndələri iştirak etmişlər.

Hesabat ilində Agentliyin nümayəndələri iştirak etdikləri beynəlxalq tədbirlərdə ölkəmiz haqqında həqiqətlərin, həmçinin ölkəmizdə dövlət başçısının rəhbərliyi altında həyata keçirilən genişmiqyaslı tədbirlər haqqında məlumatların dünya ictimaiyyətinə çatdırılması istiqamətində mütəmadi işlər görmüşlər.

30 may 2013-cü il tarixdə "Four Seasons" otelinin Konfrans zalında keçirilmiş Azərbaycanın müəllif-hüquq sisteminin və Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin müstəqillik dövründəki fəaliyyətinin 20 illiyinə həsr olunan "Azərbaycanın müəllif-hüquq sistemi 20 ildə" mövzusunda beynəlxalq konfransda bir sıra ölkələrin nümayəndələri də iştirak etmiş, Azərbaycanın müstəqillik dövründə əqli mülkiyyət sahəsində görülən genişmiqyaslı işləri yüksək qiymətləndirmişlər.

Ümumiyyətlə, Azərbaycanda bütün sahələrdə, o cümlədən əqli mülkiyyət sahəsində son illər aparılan ardıcıl və məqsədyönlü tədbirlər ÜƏMT və digər beynəlxalq strukturlar tərəfindən də yüksək qiymətləndirmiş, Azərbaycanın milli əqli mülkiyyət sisteminin genişləndiyi, inkişaf etdiyi və bir sıra mühüm irəliləyişlərə nail olduğu xüsusi qeyd edilmiş, ölkəmiz bir sıra nüfuzlu beynəlxalq təşkilatların hesabatlarında lider dövlətlər sırasında göstərilmişdir. Belə ki, Dünya İqtisadi Forumunun (DİF) 2013-2014-cü illər üçün Hesabatında ölkəmiz əqli mülkiyyət institutlarının səviyyəsinə görə dünyada 69-cu yeri tutaraq MDB məkanında 1-ci yerə çıxmışdır.

**8. Azərbaycan Respublikası Prezidentinin "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci ilər üçün Milli Fəaliyyət Planı"nın və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci ilər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli Sərəncamından irəli gələn vəzifələrin icrası.** Hesabat ilində Azərbaycan Respublikası Prezidentinin "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci ilər üçün Milli Fəaliyyət Planı"nın və "Korrupsiyaya qrşı mübarizəyə dair 2012-2015-ci ilər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli Sərəncamından irəli gələn vəzifələrin Müəllif Hüquqları Agentliyi üzrə icrası ilə bağlı Agentlik üzrə təsdiq edilmiş "Tədbirlər planı"na uyğun olaraq:

- Agentliyin fəaliyyəti barədə məlumatların və illik hesabatın internet səhifəsində yerləşdirilməsi təmin edilmişdir;
- Agentliyin fəaliyyətini tənzimləyən qanunvericilik aktları nəfis şəkildə nəşr edilmiş, bələdçi qaydaların tərtib edilməsi və vətəndaşlar arasında təşviq edilməsi istiqamətində tədbirlər görülür;
- Agentliyin fəaliyyətində ictimaiyyətin iştirakının genişləndirilməsi, Agentliyin göstərdiyi elektron xidmətlərin təkmilləşdirilməsi, Açıq hökumətin təşviqi üçün görülən tədbirlərlə bağlı maarifləndirmənin və əməkdaşlığın həyata keçirilməsi üzrə müvafiq tədbirlər həyata keçirilir.

"Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci ilər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə bağlı Agentlik üzrə təsdiq edilmiş "Tədbirlər planı"na uyğun olaraq:

- Agentliyin rəhbərliyi tərəfindən mütəmadi olaraq vətəndaşların birbaşa qəbulu təmin edilmişdir;
- Agentlikdə ərizə və şikayətlərin elektron qaydada qəbulu və rəsmi cavablandırılması işinin təkmilləşdirilməsi üzrə işlər davam etdirilir;

- Agentliyin informasiya sistemləri, məlumat bazaları və reyestrlərindən qanunvericiliklə müəyyən edilmiş qaydada, real vaxt rejimində istifadənin təmin edilməsi üzrə tədbirlər görülmüş və davam etdirilir;

- Agentlikdə çalışan dövlət qulluqçularının fəaliyyətinin təkmilləşdirilməsi və peşəkarlığının artırılması, dövlət qulluğuna qəbulun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsi mexanizmlərinin təkmilləşdirilməsi, həmçinin korrupsiyaya qarşı mübarizə üzrə təlim modulunun hazırlanması və bu məsələlərlə əlaqədar tədris proqlamlarının (etik davranış, maraqlar toqquşması, informasiya azadlığı və s.) təşkili üzrə il ərzində müvafiq tədbirlər həyata keçirilmişdir;

- Etik davranış qaydalarının təkmilləşdirilməsi, dövlət satınalmalarının təkmilləşdirilməsi və şəffaflığın artırılması, müəlliflik hüququ və digər oxşar əqli mülkiyyət hüquqları obyektlərindən istifadəyə lisenziya və icazələrin verilməsi ilə əlaqədar elektron xidmətlərin təşkili, korrupsiyaya qarşı mübarizə sahəsində vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın inkişaf etdirilməsi, korrupsiyaya qarşı mübarizə ilə bağlı maarifləndirmə işlərinin təşkili üçün müvafiq işlər görülür.

**9. Kollektiv idarəetmə sahəsində aparılan işlər.** 2013-cü ilin 27-28 noyabr tarixlərində Budapeşt şəhərində Beynəlxalq Müəlliflər və Bəstəkarlar Cəmiyyətləri Konfederasiyasının (CISAC) Mərkəzi və Şərqi Avropa ölkələri Bölməsi (BIEM) tərəfindən region ölkələrinin müəllif cəmiyyətləri üçün növbəti illik seminar keçirilmişdir (CISAC 1926-cı ildə yaradılmışdır. Mənzil-qərargahı Paris şəhərində yerləşir. Hazırda CISAC-da 121 ölkəni təmsil edən 229 müəllif cəmiyyəti birləşmişdir. Bu cəmiyyətlər musiqi, ədəbi, audiovizual, qrafik və tətbiqi incənət əsərləri yaradan 2,5 milyon nəfərdən çox müəllifin maraqlarını təmsil edirlər).

Kollektiv idarəetmə sahəsində ən yaxşı təcrübənin öyrənilməsinə və kollektiv idarəetmə təşkilatları ilə nəzarətedici orqanlar arasında əlaqələrin inkişafı mövzusuna həsr edilmiş sayca 10-cu illik seminarda müəllif-hüquq sahəsində dövlət siyasətini həyata keçirən Müəllif Hüquqları Agentliyinin nümayəndəsi X. Həsənli və "Azərbaycan Müəllifləri" İctimai Birliyinin sədri İ. Məmmədkərimov iştirak etmişlər. Agentliyin nümayəndəsi Azərbaycanda kollektiv idarəetmə təşkilatlarının tarixi, müəllif-hüquq subyekti kimi onların fəaliyyətinə dövlət nəzarətinin formaları, hüquqi əsasları və prinsipləri barədə məlumat vermişdir. Seminarda Agentliyin tabeliyindəki Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzində yaradılmış rəqəmsal hüquqların idarəçiliyi sistemi yeni nümunə kimi qeyd etmişdir.

**Müəllif qonorarı.** Hesabat dövründə 92070 **manat** müəllif qonorarı yığılmış, qonorar hesablanmış yerli və xarici müəlliflərin adları, soyadları, təxəllüsü və mənsub olduqları ölkələr barədə məlumatlar dəqiqləşdirilmişdir.

Agentliyin bank hesabına köşürülmüş 91100 manat müəllif qonorarının təyinatı üzrə bölgüsü aparılmış, köçürmə yolu ilə cəmi 67335 manat müəllif qonorarı ödənilmişdir. Büdcəyə isə 13800 manat vəsait köşürülmüşdür.

Son illərdə xidmət edilən müəlliflərin sayı müqayisə ilə aşağıdakı kimi olub:

| İllər | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|
| Xidmət edilən müəlliflərin sayı | 3697 | 3717 | 2972 | 3170 | 3188 | 3190 |
| O cümlədən: | | | | | | |
| Azərbaycan müəllifləri | 2520 | 2872 | 2161 | 2294 | 2304 | 2306 |
| Xarici ölkə müəllifləri | 544 | 845 | 811 | 876 | 884 | 884 |

**Son illərdə qonorar hesablanması (manatla) aşağıdakı kimi olub**:

| İllər | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|
| Ümumi qonorar yığımı | 76001 | 57914 | 82392 | 120598 | 112177 | 92070 |
| O cümlədən: | | | | | | |
| Azərbaycan müəlliflərinə | 60465 | 47930 | 68684 | 102899 | 103354 | 80485 |
| Xarici ölkə müəlliflərinə | 9420 | 6621 | 9455 | 15039 | 7288 | 11011 |
| Dövlət büdcəsinə | 6116 | 6118 | 4253 | 2660 | 1534 | 574 |

2013-ci ildə Azərbaycan müəlliflərinə 57704 manat qonorar ödənilmişdir. Müəllif qonorarının hesablanması və ödənilməsi ilə bağlı Mədəniyyət və Turizm Nazirliyinin tabeçiliyində olan teatr-konsert müəssisələrində müvafiq iş aparılmışdır. Belə ki, göstərilən dövr ərzində ədəbiyyat və incəsənət əsərlərindən istifadəyə görə qonorar ödəməyən, o cümlədən qonorar üzrə borc qalıqları olan teatr-konsert müəsisələrinə müəllif qonorarının düzgün hesablanması və vaxtında Agentliyin hesabına köçürülməsini təmin etmək üçün operativ araşdırmalar aparılmış, müvafiq üzləşmə aktları tərtib edilmiş, borc qalıqlarının məbləğləri dəqiqləşdirilmişdir.

Son illərin, o cümlədən 2013-cü ilin statistika göstəriciləri qonorar hesablanmış müəlliflərin sayının ildən ilə artdığını göstərir.

Hesablanmış qonorarlar barədə 275 nəfər müəllifin müraciətlərinə baxılmş və onlara müvafiq izahatlar verilmişdir.

Azərbaycan müəlliflərinə Türkiyə ərazisində əsərlərindən istifadəyə görə Agentliyin hesablaşma hesabına 1421 manat qonorar daxil olmuşdur. Həmin qonorar təyinatı üzrə bölünərək, müəlliflərin (hüquq sahiblərinin) bank hesablarına köşürülmüşdür.

Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi və Rusiya Müəllif Cəmiyyəti arasında bağlanmış Sazişin müddəalarına uyğun olaraq RCM müəlliflərinə Azərbaycan ərazisində əsərlərindən istifadəyə görə yığılmış qonorarlar hüquq sahiblərinə çatdırılmaq üçün Rusiya Müəllif Cəmiyyətinin bank hesabına 9631 manat vəsait göçürülmüşdür.

**10. Kadrların peşəkarlığının artırılması, vətəndaşların qəbulu və kargüzarlığın təşkili.**

1) Hesabat ilində Müəllif Hüquqları Agentliyində kadrlarla iş və dövlət qulluğuna qəbul "Dövlət qulluğu haqqında" Qanuna və onun tətbiqi ilə bağlı qəbul edilmiş normativ-hüquqi aktların, həmçinin Agentliyin tabeliyində Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinə qəbulla bağlı prosedurlar Əmək Məcəlləsinin tələblərinə uyğun aparılmış, kadr resurslarının beynəlxalq təşkilatlarda və inkişaf etmiş ölkələrdə stajkeçmə hesabına möhkəmləndirilməsi, mütəxəssislərin peşəkarlıq səviyyəsinin artırılması istiqamətlərində ardıcıl tədbirlər həyata keçirilmişdir.

Agentliyin 4 dövlət qulluqçusu Aİ-nin Tvinning Proqramı çərçivəsində Yunanıstan və Almaniya ölkələrində müəllif-hüquq sahəsində inzibati və idarəetmə iş təcrübəsi ilə tanışlıq məqsədilə keçirilən tədbirlərdə iştirak etmiş, 2 nəfər ÜƏMT və ÜTT-nin əqli mülkiyyətin müxtəlif sahələri üzrə məsafədən təhsil Proqramlarını müvəffəqiyyətlə bitirərək Sertifikatlar almış, 1 nəfər ÜƏMT Akademiyasının və Turin Universitetinin "Əqli mülkiyyət hüquqları"na dair Magistr proqramında təhsilini davam etdirmiş, 1 əməkdaşı Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın İstanbul Universiteti ilə birgə keçirdiyi Etik müvəkkillərlə bağlı seminarda iştirak etmiş və müvafiq sertifikat almışdır.

Bununla yanaşı, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Korporativ və Büdcə Sektorlarında Hesabatlılıq Layihəsi çərçivəsində mühasibat uçotu subyektlərinin mütəxəssislərinin peşəkarlıq səviyyəsinin artırılması məqsədi ilə Maliyyə Nazirliyi yanında Maliyyə Elm-Tədris Mərkəzində 2013-cü il ərzində "Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartları" və "Mühasibat uçotunun təşkilində Azərbaycan Respublikasının Qanunvericiliyinin və vergilərin rolu" mövzusunda təşkil edilmiş təlimlərdə Agentliyin 2 əməkdaşı iştirak etmiş və sertifikat almışlar.

Bununla yanaşı, Agentliyin əməkdaşları Agentlikdə keçirilən müəlliflik hüququ və əlaqəli hüquqlar üzrə Azərbaycan qanunvericiliyinin öyrənilməsi üzrə

seminarlarda, Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın keçirdiyi dövlət qulluğunun aktual problemlərinə dair elmi-praktik konfranslarda, dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsinə dair seminarlarda iştirak etmişlər.

Hesabat dövründə Agentliyin Aparatına 3 nəfər, Agentliyin tabeliyində Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinə isə 2 nəfər işə qəbul edilmiş, Agentliyin Aparatından 4 nəfər öz xahişi ilə işdən azad olunmuş, 8 nəfərə ixtisas dərəcəsi verilmişdir.

Agentlik üzrə əmr layihələrinin hazırlanması, verilmiş əmrlərin təyinatı, aidiyyəti üzrə çatdırılması və onların icrasına nəzarət təmin edilmişdir.

Həmçinin kadrlarla bağlı yenilənmiş məlumatlar mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya göndərilir.

2) Kargüzarlıq işləri Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat"a uyğun aparılmışdır.

Agentlik üzrə əmr layihələrinin hazırlanmasına, imzalanmış əmrlərin təyinatı və aidiyyəti üzrə çatdırılmasına və icrasına nəzarət təmin edilmişdir.

Hesabat dövründə Agentliyə 1083 sənəd daxil olmuşdur. Onlardan 52 sənəd Azərbaycan Respublikasının Prezidenti Administrasiyasından, 3-ü Milli Məclisdən, 125-i Nazirlər Kabinetindən, 8-i Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilindən, 248-ı nazirlik və komitələrdən, 13-ü Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyadan, 2-i Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən, 1-i Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətindən, 20-i apellyasiya və aşağı instansiya məhkəmələrindən, 86-sı hüquqi şəxslərdən, 72-si fiziki şəxslərdən, 10-u ictimai birliklərdən, 80-i xarici ölkələrdən, 363-ü isə bilavasitə əsərlərin qeydiyyatı ilə bağlı daxil olmuşdur.

Sənədlərin Agentlikdə hərəkəti, təşkilata daxil olduğu andan icra edildiyi və ya göndərildiyi anadək dövriyyəsi və icrasına ciddi riayət olunmuşdur.

Hesabat dövründə Agentlikdən 686 sənəd göndərilmişdir. Onlardan 16 sənəd Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, 2 sənəd Milli Məclisə, 51 sənəd Nazirlər Kabinetinə, 1 sənəd Ali Məhkəməyə, 1 sənəd Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə, 215 sənəd nazirlik və komitələrə, 7 sənəd Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya, 4 sənəd Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə, 2 sənəd Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinə, 7 sənəd digər məhkəmələrə, 175 sənəd hüquqi şəxslərə, 126 sənəd fiziki şəxslərə, 9 sənəd ictimai birliklərə, 70 sənəd isə xarici ölkələrə göndərilmişdir.

Vətəndaşların qəbulu və qəbulla əlaqədar kargüzarlığın aparılması üzrə iş "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 29 dekabr tarixli 52 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrdə vətəndaşların təklif, ərizə və şikayətləri üzrə kargüzarlığın aparılması Qaydaları"na uyğun həyata keçirilmişdir.

Agentliyin sədrinin 2012-ci il 4 dekabr tarixli 134 nömrəli əmri ilə təsdiq edilmiş 2013-cü il üçün vətəndaşların qəbulu qrafikinə uyğun olaraq, hesabat ilində Agentliyin rəhbərliyi və struktur bölmələrinin rəhbərləri tərəfindən 671 vətəndaş qəbul edilmiş, onların problemlərinin operativ şəkildə həll edilməsi üçün Agentliyin səlahiyyətləri çərçivəsində zəruri tədbirlər görülmüşdür. Bununla yanaşı, Agentliyin sədrinin 2013-cü il 28 dekabr tarixli 142 nömrəli əmri ilə 2014-cü il üçün vətəndaşların qəbulu qrafiki təsdiq edilmişdir.

Hesabat dövründə vətəndaşlardan daxil olmuş müraciətlər nəzarətə alınmış və icraya yönləndirilmişdir. 415 müraciət birbaşa Agentliyə (onlardan 8-i elektron qaydada), 7 müraciət isə digər təşkilatlardan daxil olmuşdur (cəmi 422). Müraciətlərin 334-ü müsbət, 5-i qismən həll edilmiş, 51-nə müvafiq izahat verilmiş, 18-i baxılmaq üçün aidiyyəti təşkilata göndərilmiş, 3-ü məlumat xarakterli olduğundan nəzərə alınmış, 11-i hal-hazırda icradadır.

Vətəndaşların müraciətlərinə baxılması haqqında məlumat nəzərdə tutulduğu kimi ildə 1 dəfə Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinə göndərilir.

**11. Agentliyin elektron poçtu üzrə xidmətlərin təşkili, daxil olan məktub və digər materialların öyrənilməsi, çap olunması və müvafiq qaydada təqdim edilməsi.**

Agentliyin e-mail poçtu müntəzəm yoxlanılmış, daxil olan məktub və digər materialların öyrənilməsi, zəruri materialların çap olunması və müvafiq qaydada təqdim olunması təmin edilmişdir.

**12. Agentliyin maliyyə-təsərrüfat fəaliyyətinin nəticələri.** 2013-cü ildə Agentliyin saxlanması üçün dövlət büdcəsindən 508890 manat vəsait ayrılmışdır. Bu vəsaitin 342896 manatı əməyin ödənilməsinə (272702 manat ştatda olan işçilərin əmək haqqının ödənilməsinə, 4992 manat ştatdankənar işçilərin əmək haqqının ödənilməsinə, 65202 manat sair pul ödənişlərinə), 75437 manat DSMF-na ayırmalara, 165994 manat Agentliyin saxlanması məqsədi ilə digər maddələr üzrə xərclənmişdir

Əqli mülkiyyət hüquqlarının qorunmasına və təmin edilməsinə dair 2013-cü ilin Dövlət büdcəsindən ayrılmış 298053 manat vəsaitdən 37885 manat Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin işçilərinin əmək haqqının ödənilməsinə, 8248 manat DSMF-a, 251920 manat sair xərclərə sərf olunmuşdur.

Şəbəkə avadanlığının alınmasına və quraşdırılmasına 43348 manat, qeydiyyatdan keçirilmiş əsərlər və onların müəllifləri (hüquq sahibləri) barədə İnformasiya Sisteminin yaradılmasına 45666 manat, server üçün avadanlıqların alınmasına, saxlanmasına və təmirinə 7136 manat, icarə haqqına 15938 manat, nəzarət markaları ilə təchizat, fərdiləşdirmə və istifadə olunmuş nəzarət markalarının uçotu sisteminin inteqrasiyası üzrə xidmət sisteminin quraşdırılmasına 15855 manat, tədbirlərin təşkilinə 26200 manat, güşələrin düzəldilməsinə 14200 manat, texniki avadanlıqların alınmasına 6839 manat xərclənmişdir və s.

Bir çox spesifik mühasibat sənədlərinin yeni formaları (öhdəlik sənədi, mal (iş və xidmətlərin) alış sənədi, kassa xərclərinin sifarişi, qonorar xərclərinin sifarişi, əmək haqqının hesablanması, əmək haqqının ödəniş cədvəli, əmək haqqının Visa elektron kart vasitəsi ilə verilməsi, qonorar ödəniş cədvəli, qonorarın Visa elektron kart vasitəsi ilə verilməsi, rüblük ümumi əməliyyatlar, dövriyyə balansı, kassa əməliyyatları, bank büdcə əməliyyatları, bank qonorar əməliyyatları) hazırlanmışdır.

Agentlik üzrə vergi hesabatları il ərzində Nazirlər Kabinetinin 2007-ci il 27 iyul tarixli 120 №-li qərarı ilə təsdiq edilmiş "Vergi hesabatlarının elektron sənəd formasında göndərilməsi Qaydası"na uyğun olaraq elektron sənəd formasında təqdim olunması təmin edilmişdir.